**Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının dördüncü iclasının**

**PROTOKOLU № 4**

**Bakı şəhəri** **2 iyun 2017-ci il**

**İştirak edirdilər:**

**İclasın sədri:**

Əli Əhmədov - Azərbaycan Respublikasının Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri

Şahin Mustafayev - iqtisadiyyat naziri, Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədr müavini

Hüseyn Hüseynov - İqtisadiyyat Nazirliyi İqtisadi və sosial sahələrin inkişafı şöbəsinin müdir müavini, şuranın katibi

**İclas iştirakçıları (Şura üzvləri):**

Tahir Budaqov - Dövlət Statistika Komitəsinin sədri
Hicran Hüseynova - Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri
Vaqif Əliyev - mədəniyyət və turizm nazirinin birinci müavini
Anar Hüseynov - Xarici İşlər Nazirliyinin İqtisadi əməkdaşlıq və inkişaf idarəsinin rəisi
Elsevər Ağayev - səhiyyə nazirinin müavini
İdris İsayev - əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini
Ceyhun Bayramov - təhsil nazirinin müavini
Rauf Hacıyev - ekologiya və təbii sərvətlər nazirinin müavini
Seyfəddin Talıbov - kənd təsərrüfatı nazirinin müavini
Fuad Hüseynov - Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinin sədr müavini

**Digər iştirakçılar:**

Akif Əli - Nazirlər Kabinetinin mətbuat xidmətinin rəhbəri
Qulam M.İshaqzai - Birləşmiş Millətlər Təşkilatının (BMT) Azərbaycandakı Rezident Əlaqələndiricisi
Alessandro Fracassetti - BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisinin müavini
Cəmilə İbrahimova - BMT-nin Azərbaycandakı Rezident Əlaqələndiricisinin köməkçisi
Ben Sley - İstanbul Regional Mərkəzi, UNDP, Baş Müşavir (missiyanın rəhbəri)
Kasper Sonesson - Siyasət və Program Dəstəyi üzrə Büro, BMTİP, Siyasət üzrə müşavir
Cilian Vilkox - BMT-nin Uşaq Fondu (UNICEF), Proqram və Planlaşdırma üzrə regional rəhbəri
Yelena Danilova-Kros - İstanbul Regional Mərkəzi, BMTİP, Proqram üzrə mütəxəssis
Zülfiyyə Səfərli - Tərcüməçi

**İclasın gündəliyi:**

1. 2017-ci ilin iyul ayında nəzərdə tutulmuş Yüksək Səviyyəli Siyasi Forum üçün (HLPF) Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının İlkin Könüllü Milli Hesabatının hazırlanması prosesinin cari vəziyyəti;
2. Dayanıqlı İnkişaf Məqsədlərinin milliləşdirilməsi prosesinə texniki dəstək məqsədilə BMT-nin aparıcı mütəxəssislərindən və texniki eskpertlərindən ibarət MAPS Mission (Aktuallaşdırma, Sürətləndirmə və Siyasətə Dəstək) qrupunun fəaliyyəti və Azərbaycanda Dayanıqlı İnkişaf Məqsədlərinin həyata keçirilməsi ilə bağlı Missiyanın qiymətləndirilməsi barədə məlumatlandırma;
3. Dayanıqlı İnkişaf Məqsədləri ilə bağlı müəyyən edilmiş öhdəliklərlə əlaqədar dövlət orqanlarının üzərinə düşən vəzifələrin icrasının yerinə yetirilməsi məqsədilə formalaşdırılan Monitorinq və Qiymətləndirmə Qrupunun tərkibinin təsdiqi;
4. Cari məsələlərin müzakirəsi.

Milli Əlaqələndirmə Şurasının 4-cü iclasında aşağıdakı məsələlər üzrə **qərarlar qəbul edildi:**

1. Yüksək Səviyyəli Siyasi Forum üçün Hesabatın hazırlanması məqsədilə qurumlar tərəfindən müvafiq məlumatlar qısa zamanda Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının Katibliyinə təqdim edilsin;
2. İqtisadiyyat Nazirliyinə tapşırılsın ki, müvafiq qurumlar tərəfindən daxil olmuş rəy və təkliflər nəzərə alınmaqla Azərbaycanın ilk Könüllü Milli Hesabatının yekun variantının 16 iyun 2017-ci il tarixinədək BMT-nin İqtisadi və Sosial Şurasına təqdim edilməsini təmin etsin;
3. Monitorinq və qiymətləndirmə qrupunun tərkibi və rəhbəri təsdiq olunsun.

**İclasın sədri,**
**Baş nazirin müavini** **Əli Əhmədov**

**İclasın katibi** **Hüseyn Hüseynov**